**Nataliya Ginzburq**

Tərcümə etdi: Abuzər Cəfərov

# Cırıq ayaqqabı

***Mənim ayaqqablarım cırıqdır, hal-hazırda birlikdə yaşadığım rəfiqəmin ayaqqabıları da cırıqdır. Biz demək olar ki, tez-tez ayaqqabılardan danışırıq. Elə ki, gələcəkdə yaşlı yazıçı olacağımdan danışmağa başlayıram o, tez soruşur : 'Onda hansı ayaqqabıdan alacaqsan?'' Mən isə cavab verirəm ki, bir tərəfində qızıldan bəzək olan yaşıl zamşa alacam.Mənsub olduğum ailədə hər kəsin ayaqqabaları təzə və möhkəmdir. Anamın ayaqqabıları çox olduğundan onları yığmaq üçün hətta bir balaca şkaf da düzəltməli olub. Nə vaxt evə gedirəm ayyaqabımı görüb başlayırlar hay-küy salmağa. Ancaq mən bilirəm ki, hətta cırıq ayaqqabılarla da yaşamaq mümkündür. Almanların zamanında Romada tək idim və yalnız bir cüt ayaqqabım var idi. O da cırıq idi.***

Əgər ayaqqabını düzəltdirmək üçün çəkməçiyə versəydim, gərək iki-üç gün yataqda qalaydım, bu isə mümkün deyildi. Beləliklə, ayaqqabının yavaş-yavaş su buraxmasına, səkinin soyuğunun ayağamın altında hiss etməyimə və nəmişlikdən görünüşünü dəyişməsinə baxmayaraq, hətta yağışlı günlərdə də bu ayaqqabını geyinmək məcburiyyətində idim. Bu səbəbdən indi də cırıq ayaqqabı geyinirəm, çünki bu mənə o günlərimi xatırladır. Həm də, bu ayaqqabı o ayaqqabıya nisbətən daha yaxşı vəziyyətdədir. İndi pulum olsa belə, ayaqqabı almaqdansa başqa şeylər almağı üstün tutaram, çünki ayaqqabılar daha mənim üçün çox da önəmli deyil. Əvvəllər çox ərköyün idim və ətrafımda məni sevən insanlar var idi. Ancaq o il Romada ilk dəfə idi ki, tək idim. Mənə üzücü xatirələri və çox az yaşadığım xoş saatları xatırlatmasına baxmayaraq, Roma mənim üçün doğmadır. Rəfiqəmin da ayaqqabısı cırıqdır, buna görə də birlikdə bizə yaxşıdır. Rəfiqəmə geyindiyi ayaqqabıya görə bir söz deyən yoxdur. Bir qardaşı var, o da kənddə yaşayır və ovçu ayaqqabısı geyinir. Yalnız o və mən yağış yağanda ayaqqabılarımıza daxil olan suyun təsirindən islanmış, çılpaq ayaqların nə demək olduğunu yaxşı bilirik. Bir də eşitdiyimiz o özünəməxsus şappıltı səsləriningRəfiqəmin üzü solğundur, sifəti isə kişi sifətinə bənzəyir. Özü də qara müştük çəkir. Onu ilk dəfə görəndə stolun yanında oturmuşdu. Gözündə dairəvi tısbağa gözlüklərini, dişlərinin arasındakı qara müştüyü, sehirli və təkəbbürlü sifətini görüb onun çinli generallara bənzədiyini düşünürdüm.

***Bir-birimizi cəmi bir neçə aydır ki, tanıyırıq, amma mənə elə gəlir, sanki illərdir tanışıq. Rəfiqəmin uşağı yoxdur, mənim isə iki uşağım var. Bu ona çox qəribə gəlir. Uşaqlarım kənddə yaşadığından, rəfiqəm onları heç şəkildə belə görməyib. Və bizim aramızda olan daha qəribə bir şey isə onun, yəqin ki, mənim övladlarımı heç vaxt görməyəcək olmasıdır. Müəyyən mənada onun heç bir problemi yoxdur və istənilən vaxt bu lənətə gəlmiş həyatdan imtina edə bilər. Ancaq mən bacarmaram. Qısacası, mənim uşaqlarım anamla yaşayır və xoşbəxtlikdən hələki onlar cırıq ayaqqabı geyinmirlər. Bəs böyüyəndə necə olacaq? Yəni, böyüyəndə görəsən necə ayaqqabı geyinəcəklər? Öz addımlarını atmaq üçün hansı yolu seçəcəklər? İnsanın təzə və normal ayaqqabı geyinməli olmadığı arzularınımı arxasınca düşəcəklər, yoxsa əksinə təzə və normal ayaqqabıların vacib olduğu bir həyatımı seçəcəklər?***

Rəfiqəmlə tez-tez bunu müzakirə edirik. Gələcəkdə – mən yaşlı və məşhur bir yazıçı olanda, o çinli bir general kimi çiynində çantası bütün dünyanı gəzəndə, mənim övladlarım müti insanlar kimi möhkəm və normal ayaqqabılar və durğun addımlarla və yaxud da ayaqqabıların heç də vacib bir şey olmadığını anlayan insanlar kimi geniş və tənbəl addımlarla öz yollarında addımlayanda dünya necə olacaq? Bəzən isə biz mənim uşaqlarımla, onun kənddə ovçu ayaqqabası ilə gəzən qardaşı uşaqlarının toylarını birləşdiririk. Ve beləcə, tünd çay içə-içə gecə yarısına kimi söhbətləşirik. Bizim bir yatağımız və yerə salmaq üçün döşəyimiz var. Hər gecə mən onun yataqda yatmağını istəsəmdə, o, mənim yatmağım üçün təkid edir. Səhər biz yuxudan duranda isə, cırıq ayaqqabılarımız döşəmənin üzərində bizi gözləyir.



Rəfiqəm bəzən deyir ki, işdən çox yorulub və daha heç nəyi vecinə almadan yaşamaq istəyir. Bir meyxanada oturub yığdığı pullarla səhərdən axşama kimi içmək istəyir. Və yaxud da qazı açıq, işıqları isə yanlı qoyub, yavaş-yavaş qazın və işığın evə yayılmasına şərait yaradaraq bütün günü yataqda qalıb heç nəyi düşünmək istəmir. Deyir ki, bunu mən köçəndən sonra edəcək. Çünki, biz birlikdə çox qalmayacağıq, yaxın vaxtlarda mənə cırıq ayaqqabılar geyinməyə icazə verilməyən evə- anamın və uşaqlarımın yanına qayıdacağam. Anam mənim qayğıma qalacaq və gecə yarısına kimi yazmağıma icazə verməyəcək.

***Öz növbəmdə mən də uşaqlarımın qayğısına qalacaq həyatlarını hədər yerə xərcləmələrinə icazə verməyəcəyəm. Hər zaman olduğu kimi yenə də onlarla olanda, indi olduğum kimi yox, daha ciddi olacağam, başqa bir insana çevriləcəyəm. O insana ki, onu rəfiqəm heç tanımır.Saata baxacaq, hər bir işi düzgün vaxt bölgüsü ilə edəcək və hər bir şeyə diqqət və qayğı ilə yanaşacağam. Onlara qulluq edəcəyəm ki, ayaqları hər zaman quru və isti qalsın, çünki bu mümkün olduğu qədər belə lazımdır, ən azından uşaq olanda. Bəlkə də gələcəkdə onların cırıq ayaqqabılarda gəzməyi öyrənmələri üçün, uşaqlıqda sağlam və quru ayaqlara sahib olmalıdırlar.***

Türküstan.- 2021.- 7-11 oktyabr.- S.14.